**AZƏRBAYCANIN VERGİ XƏBƏRLƏRİ**
*aylıq elmi-metodiki jurnal*
**НАЛОГОВЫЕ ВЕСТИ АЗЕРБАЙДЖАНА**
*ежемесячный научно-методический журнал*
**TAXES NEWS OF AZERBAIJAN**
*monthly scientific-methodic journal*

*Təsisçi:*
**Azərbaycan Respublikasının Vergilər Nazirliyi**
*Учредитель:*
**Министерство по налогам Азербайджанской Республики**
*Published by:*
**Ministry of Taxes of Azerbaijan Republic**



**BİZ BAZAR İQTİSADİYYATINI VERGİ YOLU İLƏ TƏNZİMLƏMƏLİYİK.**

*Heydər ƏLİYEV*

ISSN-2219-8733 | № 12 (88). DEKABR 2010-cu il

**REDAKSİYA HEYƏTİ:**

**Elşən HACIZADƏ** – *baş redaktor iqtisad elmləri doktoru, professor*

**Vahid AXUNDOV** – *İqtisadi siyasət məsələləri üzrə Dövlət müşaviri, iqtisad elmləri doktoru, professor*
**Ziyad SƏMƏDZADƏ** – *Milli Məclisin İqtisadi Siyasət Komitəsinin sədri, akademik*
**Fazil MƏMMƏDOV** – *vergilər naziri*
**Kəmaləddin HEYDƏROV** – *fövqəladə hallar naziri*
**Şahin MUSTAFAYEV** – *iqtisadi inkişaf naziri*
**Azər ƏMİRASLANOV** – *Prezident Administrasiyasının Aqrar siyasət məsələləri şöbəsinin müdiri, iqtisad elmləri namizədi*
**Səlim MÜSLÜMOV** – *Dövlət Sosial Müdafiə Fondunun sədri, iqtisad elmləri doktoru*
**Vahid NOVRUZOV** – *Auditorlar Palatasının sədri, iqtisad elmləri doktoru, professor*
**Asəf NADİROV** – *akademik*
**Ağasəlim ƏLƏSGƏROV** – *Azərbaycan MEA-nın müxbir üzvü*
**Akif MUSAYEV** – *Azərbaycan MEA-nın müxbir üzvü*
**Natiq ƏMİROV** – *vergilər nazirinin birinci müavini*
**Namiq ƏLİYEV** – *vergilər nazirinin müavini, hüquq elmləri namizədi*
**Sahir MƏMMƏDXANOV** – *vergilər nazirinin müavini*
**Sahib ƏLƏKBƏROV** – *vergilər nazirinin müavini*
**Asif CAHANGİROV** – *Vergilər Nazirliyinin Aparatının rəhbəri, tarix elmləri namizədi*
**Vidadi MƏMMƏDOV** – *Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin rəisi səlahiyyətlərinin müvəqqəti icraçısı, hüquq elmləri namizədi*
**Yaşar KƏLBİYEV** – *Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəisi, iqtisad elmləri doktoru*

**Elşən ƏLİYEV** – *məsul katib*

## MÜNDƏRİCAT

***RƏSMİ***
Prezident İlham Əliyevə "Jurnalistlərin dostu" mükafatı təqdim olunmuşdur ......... 2
***VERGİLƏR NAZİRLİYİNDƏ***
Azərbaycan və Litva arasında iqtisadi əməkdaşlıq məsələləri müzakirə olunmuşdur ......... 4
2011-cu il üçün Tədbirlər Planı təsdiq edilmişdir ......... 5
***AKTUAL***
*Ə.Babayev.* Azərbaycanın iqtisadi inkişaf modeli ......... 6
*M.Atakişiyev.* Azərbaycanın uğurlu sosial-iqtisadi inkişaf strategiyası ......... 16
***TƏLTİF***
Azərbaycan Milli Məclisinin Komitə sədri Belarus medalı ilə təltif edilmişdir ...... 20
***VERGİ SİYASƏTİ***
*P.Rzayev.* İqtisadiyyatın vergi tənzimlənməsi problemləri və onların həlli yolları ......... 21
***GİZLİ İQTİSADİYYAT***
*E.Bağırzadə.* İqtisad elmində gizli iqtisadiyyat fenomeni: mövcud araşdırmaların əsas inkişaf istiqamətlərinə bir baxış ......... 32
***BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR***
*Ş.Bayramov.* Avropa İttifaqı və postsovet ölkələri arasında münasibətlərdə yeni əməkdaşlıq formulası axtarışı ......... 45
***ENERJİ TƏHLÜKƏSİZLİYİ***
*R.İsayev.* Azərbaycanda əhalinin və iqtisadiyyatın enerji təminatının yaxşılaşdırılması yolları ......... 57
***İQTİSADİ CİNAYƏTKARLIQ***
*İ.İbadov.* Kriminal xarakterli uçotlardan istifadənin əhəmiyyəti ......... 63
***İQTİSADİ XƏBƏRLƏR*** ......... 67
***ELM KORİFEYLƏRİ***
İqtisadiyyat sahəsində Nobel mükafatı laureatları ......... 68
***TƏQVİM***
Dekabr: mühüm tarixlər ......... 70
***TERMİNOLOGİYA***
İqtisadi lüğət ......... 71
**ABSTRACTS** ......... 72
***MƏLUMAT***
Müəlliflər üçün qaydalar ......... 73
2010-cu ildə "Azərbaycanın vergi xəbərləri" jurnalında dərc edilmiş materiallar ... 76

***Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə İqtisadiyyat elmləri üzrə elmi nəşrlər siyahısına daxil edilmişdir.***

**Jurnal 2003-cü ilin iyulundan nəşr edilir.**
"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq şəkildə təsis edilmişdir. Reyestr № 510

**Redaksiyanın ünvanı:**
AZ 1073.
Bakı şəhəri,
Landau küç.,16.
Telefon: 403-87-92.
Faks: 403-87-87

**Bank rekvizitlərimiz:**
VÖEN 1300314501,
h/h 12-12931-1,
"Atabank" ASC, VÖEN 9900006651,
kod 507581, m/h 0137010032944,
SWIFT. BIK. ATAZAZ-22

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

**"CBS polygraphic production" mətbəəsində çap edilmişdir ● Çapa imzalanmışdır: 27 dekabr 2010-cu il ● Tirajı: 1300 nüsxə**

# PREZİDENT İLHAM ƏLİYEVƏ "JURNALİSTLƏRİN DOSTU" MÜKAFATI TƏQDİM OLUNMUŞDUR



♦ **Dekabrın 29-da "Gülüstan" sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Jurnalistlərin dostu" mükafatının təqdim olunması mərasimi keçirilmişdir. Mərasim Azərbaycanın dövlət himninin səslənməsi ilə başlamışdır. Azərbaycanın mətbuat tarixinə qısa nəzər salınmışdır.**

"RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi idarə heyətinin üzvü, Mətbuat Şurasının sədri Əflatun AMAŞOV "Jurnalistlərin dostu" mükafatının əsasnaməsi və mükafatın laureatının müəyyən edilməsi ilə bağlı bu il keçirilən sorğunun nəticələri barədə məlumat verərək demişdir: "Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, əziz qonaqlar, sizləri "Jurnalistlərin dostu" mükafatının təqdimatı mərasimində görməkdən məmnunluq duyur, hər birinizə "Xoş gəlmisiniz" deyirik. Bugünkü mərasimimizin əlamətdar günlərə təsadüf etməsi xoş ovqatımıza bayram əhval-ruhiyyəsini də əlavə etmişdir. İcazə verin, sizləri Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ürəkdən təbrik edim, hər birinizə xoş arzularımızı yetirim.

"RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi gördüyünüz bu mükafatı 1997-ci ildə təsis etmişdir. Jurnalistlərlə dövlət məmurlarını, ictimai-siyasi xadimləri dostluğa, sıx əməkdaşlığa səsləyən göyərçin onun daimi simvoludur. Dəyişən isə illərə bələdçilik edən rəqəmlərdir. "Jurnalistlərin dostu" mükafatı medianın inkişafında, onun demokratik təsisat kimi formalaşmasında müstəsna xidmətləri olan şəxslərə, ictimai-siyasi və dövlət xadimlərinə verilir. Qaliblər "RUH"un kütləvi informasiya vasitələri və jurnalist təşkilatları arasında keçirdiyi sorğu vasitəsilə müəyyənləşdirilir.

Hörmətli mərasim iştirakçıları, bu gün biz buraya 2010-cu ilin qalibini təbrik etməyə toplaşmışıq. Qalibi müəyyən etmək üçün bu il dekabrın 1-dən 20-dək keçirilən sorğuda 30 gündəlik, 19 həftəlik qəzet, 13 jurnalist təşkilatı, 11 informasiya agentliyi, 8 xəbər portalı, 7 telekanal, 3 radio və 2 jurnal iştirak etmişdir. Bütövlükdə sorğu 30 minə yaxın media nümayəndəsinin rəyini ümumiləşdirmişdir. Nəticələrə əsasən, mediaya verdiyi dəyərə və bütövlükdə kütləvi informasiya vasitələrinə diqqətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 81 faiz səslə birinci yerə layiq görülmüşdür. İkinci və üçüncü yerləri "Azercell Telekom" MMC-nin prezidenti Əli Ağan, rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov bölüşüblər. Hər üç qalibi təbrik edirik.

2010-cu ildə jurnalistikamızın həyatı əlamətdar hadisələrlə zəngin olub. Cənab Prezident, mətbuatımızın 135 illik yubileyi münasibətilə imzaladığınız Sərəncama əsasən Bakıda və bölgələrdə çoxsaylı tədbirlər keçirilmişdir. Təqribən 40 KİV-in hər birinə birdəfəlik yardımlar edilib ki, bunun da